"Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir".

Heydər ƏLİYEV



AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 iyun 2015-ci il № 46 (1962) Qiyməti 25 qəpik

# "Bakı-2015" - Birinci Avropa Oyunlarının təntənəli açılış mərasimi olub

## Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib




***Azərbaycan və onun paytaxtı Bakı səbirsizliklə gözlənilən anın - Birinci Avropa Oyunlarının açılışının həyəcan və sevincini yaşadı.***

Tamaşaçılar açılış mərasiminin keçirildiyi Bakı Olimpiya Stadionuna daxil olaraq yerlərini tutdular. "Bakı-2015" Birinci Avropa Oyunları Əməliyyat Komitəsinin məlumatına görə, açılış mərasimi üçün nəzərdə tutulan bütün biletlər satılıb.

Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən ilk Avropa Oyunlarını tarixi hadisə adlandırırlar. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki iyunun 11-də AZƏRTAC-a müsahibəsində əminliklə vurğulayıb ki, Bakıda hər kəs gözəl, möhtəşəm və inanılmaz idman bayramının şahidi olacaq. Onun sözlərinə görə, "Bakı-2015" - ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri olacaq və 6 min atletin 20 idman növündə mübarizəyə qatılması, həqiqətən, böyük göstəricidir.

Bakı Olimpiya Stadionuna toplaşmış 68 min tamaşaçı, eləcə də dünyada yüz milyonlarla televiziya tamaşaçısı unudulmaz tarixi anın şahidi oldular.

Paytaxtın xəritəsinə yeni daxil olmuş Bakı Olimpiya Stadionu öz möhtəşəmliyi, əsrarəngiz gözəlliyi ilə hər kəsin diqqətini çəkir. Burada dünyanın aparıcı bədii, yaradıcı və texniki heyətlərinin iştirakı ilə ərsəyə gələn kreativ şou nümayiş olundu. Stadion ən mürəkkəb tərtibata malik möhtəşəm səhnə mexanizmindən ibarət məkana çevrilmişdi. O, təbiətin dörd ünsüründən - su, od, torpaq və yel obrazlarından istifadə etməklə heyrətamiz bir mənzərə yaratdı. Səhnənin quraşdırılması üç aya başa gəlib.

Mərasimin təşkilinə 28 ölkədən 300-dən çox yaradıcı heyət və 34 ölkədən 1000 nəfər mütəxəssis cəlb olunub.

Açılış mərasimini hazırlayan bədii heyətin siyahısına qısa nəzər yetirək: Bədii rəhbər 2004-cü ildə Afina Olimpiya Oyunlarında mərasimlərin qurucusu kimi dünyada böyük şöhrət qazanan Dimitris Papaioannoudur. Musiqi rəhbəri Teodor Currentzis 2014-cü ildə "Operaların lentə alınması üzrə ECHO mükafatı" laureatıdır. Quruluşçu rəssamlar isə Thanassis və Eva memarlıq, dizayn və səhnə quruculuğunun kreativ məkanı olan "Flux Ofis" şirkətinin memar və yaradıcıları - Tanassis Demiris və Eva Manikadakidir. Onların memarlıq, teatr, opera, rəqs və kino sahəsindəki işləri Venesiya Memarlıq Biennalesi (2014), Venesiya Film Festivalı (Miss Violence, 2013) və digər beynəlxalq səviyyəli tədbirlərdə nümayiş etdirilib, mükafatlar qazanıb.

Beləliklə, çoxdan bəri səbirsizliklə gözlənilən, həyəcan və qürur doğuran tarixi an - Bakı Olimpiya Stadionunda ilk Avropa Oyunlarının açılış mərasimi başladı.

Mərasim "Bakı-2015" Birinci Avropa Oyunları Əməliyyat Komitəsinin əməliyyatlar üzrə baş direktoru Saymon Kleqin dediyi kimi, bir sıra maraqlı məqamlar və sürprizlərlə yadda qaldı.

Tamaşaçıların sürəkli alqışlarından sonra stadiona bir anlıq sükut çökdü. Bu sükutu dünya şöhrətli xanəndə Alim Qasımovun ifa etdiyi muğamın avazı pozdu. Sonra ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayım başladı. Bu, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ilini əks etdirirdi.

Rəqəmlər sıfıra yaxınlaşdıqca nağaraların səsi zilə qalxırdı. Stadion gur işığa qərq olur və minədək rəqqasə səhnənin əsas hissəsini ətəkləri ilə örtürdü. Onların ətəkləri Azərbaycanın dünyaca məşhur xalılarındakı həndəsi fiqurlarla, dekorativ naxışlarla işlənmişdi. Rəqqasələrin paltarlarının ətəkləri 16 min kvadratmetr parçadan tikilib. Bu, 13 Olimpiya üzgüçülük hovuzu böyüklükdə parça deməkdir. Hər ətək məxsusi olaraq səhnədəki yerinə görə işlənib.

Rəqqasələrin ətəklərinin son yellənişində Azərbaycanın dövlət bayrağının obrazı yarandı. Səhnədən səmaya fişənglər atıldı. Şeypurçular Dmitri Şostakoviçin "Bayram uvertürası"ndan bir parça səsləndirdilər. Diqqət VİP-lojalara yönəldi və salamlama başladı. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, birinci xanım, "Bakı-2015" ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini hərarətlə salamladılar.

Stadionun VİP tribunasında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki əyləşmişdilər. Oyunların açılış mərasimində iştirak etmək üçün Bakıya gəlmiş mötəbər qonaqlar arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Tomislav Nikoliç, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Monteneqro Prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Mladen İvaniç, Monako şahzadəsi II Albert, Lüksemburqun Böyük Hersoqu Anri, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Rumıniyanın Baş naziri Viktor Ponta, Bolqarıstanın Baş naziri Boyko Borisov, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah Bin Musaad Bin Əbdüləziz, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, eləcə də San-Marino, İsveçrə, Böyük Britaniya, Slovakiya, Çexiya, İran, Ukrayna, Oman, Küveyt, Qətər və digər ölkələrin yüksək səviyyəli rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri vardı.

Simfonik orkestrin ifasında Azərbaycanın Dövlət himni səsləndirildi.

Azərbaycan Respublikasının Dövlət bayrağı stadiona gətirildi.

Stadionda quraşdırılan elektron tablolarda Azərbaycanı qarış-qarış dolaşmış məşəlin səyahət marşrutu nümayiş etdirildi. Uzunluğu 700 metr olan, arena boyu dövrələnən paneldə LED lampaları vasitəsilə alovun səyahət etdiyi məkanların adları bir-bir yazıldı.

Son məşəlçi - iki dəfə parolimpiya oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev Jan Sibeliusun "5-ci Simfoniya"sının sədaları altında Birinci Avropa Oyunlarının məşəlini stadiona gətirdi. Gənclərin Olimpiya Oyunlarında taekvondo üzrə qızıl medala layiq görülmüş Səid Quliyev onunla yanaşı addımlayırdı. Onlar mərkəzə doğru hərəkət etdikləri zaman ayaqları altında cadar-cadar olan torpaq görünürdü. Bu mənzərə palçıq vulkanları ətrafında Azərbaycan təbiətini göz önündə canlandırırdı.

Səid Quliyev stadionun mərkəzində qaya parçasını götürdü və onun yerində çökək yarandı. İlham Zəkiyev tərəfindən ora yaxınlaşdırılan məşəl söndü, çökək doldu. Torpaq üzərindəki çatlardan çıxan alov qığılcımlarının axını lavanı xatırladırdı.

Stadionun ortasından qaya parçası götürüldü və birinci məşəl gələcəkdə görüləcək işlərə işıq salmaq üçün torpağa basdırıldı.

Torpağın çatlarından çıxan alov səhnənin kənarında dayanmış adama tərəf irəlilədi, ruh və ya holoqram kimi onu bürüyüb cana gətirib oyatdı. Həmin adam şair Nizamidir. Şairin əlində tutduğu tərəzinin bir gözündə qadın, digər gözündə kişi fiquru vardı. Nizami poeziyasının ruhundan doğan musiqi parçası tamaşaçıları şairin xəyal dünyasına apardı. Nəzərlər stadionun mərkəzində havadan asılmış iri tərəziyə yönəldi. Nizami əlindəki tərəzini fırlatdıqca iri tərəzi də fırlanırdı. Havadan asılmış iri tərəzinin gümüşü rəngli gözündə qadın (Ay), qızılı rəngli gözündə isə kişi (Günəş) rəqs edirdi. Nizaminin qəhrəmanları Leyli və Məcnunun rəmzləri olan kişi və qadın dövrə vura-vura rəqs edir, qovuşmağa çalışır, lakin birləşə bilmirdilər.

Səhnə ətrafındakı halqada üç yüzədək ifaçı göründü. Qədim tarixə malik miniatür sənətinin yaratdığı obrazlar səhnədə göründükcə halqanın ətrafı rənglə dolurdu. Halqa fırlandıqca adamlar sanki miniatür rəsmlərdə təsvir olunan obrazları canlandırırdılar. Nizami tamaşaçını yaradıcılığının doqquz mövzusu ətrafında səhnədən-səhnəyə aparırdı. Evlər, saray və məktəblər, şahzadələr, əjdahalar, atlar, digər real və əfsanəvi varlıqlar görünürdü.

Halqa tam dövrə vurduqdan sonra yerdən nar ağacı boy verib qalxdı. Nizami ağacdan bir nar dərdi. Qəfildən hər şey dondu.

Nizaminin ətrafındakı miniatürlər dünyası torpağa bataraq yoxa çıxdı, tərəzi uzaqlaşdı və ifaçılar səhnəni tərk etdilər.

Stadionun mərkəzinə doğru uçan, bolluq, oyanış, sevgi, uğur mücəssəməsi olan və Azərbaycanı rəmzləşdirən nəhəng bir nar göründü. Nar paralandı və onun dənələri - qırmızı rəngli yüzlərlə şar tribunaların üzərində uçmağa başlayaraq ecazkar mənzərə yaratdı.

Sonra komandaların paradı başladı. Bu mərasim 50 təbilçinin çaldığı gurultulu təbil sədaları ilə müşayiət olunurdu. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onun arxasınca əlifba sırası ilə gəlirdilər.

İdmançıların keçidini Albaniya, Andorra, Ermənistan, Avstriya, Belorus, Belçika, Bosniya və Herseqovina idmançıları davam etdirdilər.

Tribunaların önündən Bolqarıstan, Xorvatiya, Kipr, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Makedoniya komandaları keçdilər.

Növbə Fransa, Gürcüstan, Almaniya, Böyük Britaniya, Macarıstan komandalarına çatdı. Oyunlarda ən böyük nümayəndə heyəti ilə təmsil olunan ölkələrdən biri Almaniyadır. Bu ölkədən Bakıya 266 idmançı gəlib.

Onların ardınca İslandiya, İrlandiya, İsrail, İtaliya, Kosovo, Latviya, Lixtenşteyn, Litva, Lüksemburq, Malta komandaları gəlib keçdilər. Əslən irlandiyalı olan Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki ölkəsinin komandasını sevinclə salamladı.

Mərasim Moldova, Monako, Monteneqro, Hollandiya, Norveç, Polşa, Portuqaliya, Rumıniya komandalarının keçidi ilə davam etdi.

Rusiya, San-Marino, Serbiya, Slovakiya, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Türkiyə, Ukrayna komandaları tribunaların önündən keçdilər. Rusiya bu Oyunlarda ən böyük nümayəndə heyəti - 359 idmançı ilə təmsil olunur. Rusiya Prezidenti Vladimir Putin ayağa qalxaraq ölkəsinin nümayəndə heyətini salamladı.

Tamaşaçılar qardaş Türkiyə idmançılarını xüsusi coşqu ilə qarşıladılar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Bakıya gəlmiş 190 idmançını salamladılar.

İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamladılar. Ölkəmiz Oyunlarda 291 idmançı ilə təmsil olunur. Onların keçidi Mənsum İbrahimovun ifasında "Qarabağ şikəstəsi" muğamı ilə müşayiət olunurdu. Üçrəngli bayrağımızı cüdo üzrə Avropa çempionu Elmar Qasımov aparırdı. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamladılar.

İdmançılar mərkəzi səhnə ətrafında təntənəli şəkildə addımlayaraq parad zamanı 50 bayrağın yerləşdirildiyi platformaya aparan pillələrdə toplaşaraq tribunalarda yerlərini tutdular.

Daha sonra bayraqların rəqsi başladı. Aaron Koplendin "Adi adam üçün şeypur" əsərindən musiqi parçası ilə başlanan 50 bayrağın rəqsi Natiq Şirinovla 50 nağaraçının ifasında zərb alətlərinin sədası altında davam etdi.

Dünya şöhrətli müğənni Ledi Qaqanın ifası açılış mərasiminin vəd edilən sürprizlərindən biri oldu. O, piano arxasında əyləşərək "Imagine" ("Xəyal et") mahnısını ifa etdi. Müğənninin ifası hərarətlə qarşılandı və dəfələrlə alqışlandı.

Stadiona Avropa Olimpiya Komitəsinin (AOK) bayrağı gətirildi. Onu səhnəyə Avropanın müxtəlif ölkələrindən olan səkkiz Olimpiya çempionu - Namiq Abdullayev (Azərbaycan), Lüsi Dekosse (Fransa), Servet Tazegül (Türkiyə), Nikkolo Kampriani (İtaliya), Keti Teylor (İrlandiya), Tomas Bimis (Yunanıstan), Kristina Fazekas Zur (Macarıstan), Yelena Zamolodçikova (Rusiya) gətirdilər.

Stadionda Uilyam Uoltonun "İmperiya tacı" marşı səsləndi.

AOK-un bayrağı Azərbaycan bayrağı ilə yanaşı ucaldıldı.

Stadiondakı tablolarda Avropa Nüvə Tədqiqatları Təşkilatının və orada çalışmış alimlərin videogörüntüsü, həmçinin ixtiraları yayımlandı. Onların arasında məşhur həmyerlimiz, Nobel mükafatı laureatı Lev Landau da vardı.

Avropa Nüvə Tədqiqatları Təşkilatı 60 ildən çoxdur ki, xalqları elm ətrafında birləşdirərək, sülhə çağırır. Avropa Oyunları beynəlxalq birliyin idmandan od alan yeni məşəlidir.

Böyük adron sürətləndiricisi 100-dən çox xalqı təmsil edən 10 mindən artıq fizik və mühəndisin cəmləşdiyi qurumun - Avropa Nüvə Tədqiqatları Təşkilatının əsas məhsuludur. O, dünyanın ən böyük maşınıdır və Avropanın mərkəzində, yerin dərinliklərində saxlanılır.

Yanıb-sönən LED lampalar stadion boyu zərrəciklərin sürətlə dövrə vurması böyük adron sürətləndiricisi effektini yaratdı.

Stadionun üzərində iri ağ buğa və qız, onların arxasınca sayrışan ulduzlar kəhkəşanı göründü. Bu, Avropa qitəsinin gecə vaxtı kosmosdan görünən siluetidir. Uçub-keçən ulduzlar Bakı səmasında parlayır. Avropa qitəsinin xəritəsinin hazırlanması üçün 16 lazerdən istifadə olunub. İlk dəfə idi ki, bir səhnədə irimiqyaslı animasiya yaratmaq üçün bu qədər lazerdən istifadə edilirdi.

Əfsanəyə görə, Avropa Finikiya şahzadəsi idi. Avropanın gözəlliyinə məftun olmuş yunan tanrısı Zevs çimərlikdə onun qarşısında əzəmətli ağ buğa cildində peyda olur. Heyran qalmış Avropa buğanın tərkinə minir. Zevs dərhal onu oğurlayır və dənizdən keçirib Avropanın cənub sahillərində yerləşən yunan adası Kritə gətirir. Burada Avropanın Zevsdən üç oğlu dünyaya gəlir. Oğullardan biri Avropanın ilk maarifçi sivilizasiyasının əfsanəvi banisi Minos idi. Avropa bu əfsanəvi Şərq şahzadəsinin şərəfinə adlandırılıb və onun buğanın belindəki təsviri qitənin rəmzidir.

Avropa və buğa stadionun üzərində uçduqda Leoş Yanaçekin "Ot basmış cığırlarla" əsəri Hokon Eustbönün ifasında səsləndi. Bu bölmə Birinci Avropa Oyunlarının rəsmi açılışını ifadə etdi.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və Azərbaycanın birinci xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva səhnəyə gəldilər.

İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış etdi.

- Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax.

Zati-aliləri.

Avropa Oyunlarının atletləri.

Xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz. İlk Avropa Oyunlarına xoş gəlmisiniz.

Əziz həmvətənlər.

Birinci Avropa Oyunlarının açılışı münasibətilə bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm.

Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir.

Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır.

Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır.

Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun!

Əziz dostlar, bu axşam biz Avropanın idman tarixində yeni fəslə başlayırıq.

Azərbaycan fəxr edir ki, ilk Avropa Oyunları Bakıda keçirilir.

Avropa Oyunlarının məşəli müqəddəs Atəşgah məbədində alovlandırıldı və yol boyunca hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə döyündürərək ölkəmizi dolaşdı.

Məşəl bayram, ruhlandırma və birlik mesajını daşıdı.

Məhz alovlanan ruh hamımızı bir araya gətirir.

Mən Avropa Olimpiya Komitəsinə və onun prezidenti Patrik Hikkiyə minnətdarlığımı bildirmək istəyirəm.

Bu minnətdarlıq onun həm ilk Avropa Oyunlarının keçirilməsi üçün Bakının seçilməsinə, həm də yadda qalacaq belə bir tədbirin təşkilinə verdiyi dəstək və göstərdiyi yardım ilə bağlıdır.

Mən, həmçinin Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı və Olimpiya ailəsinin üzvlərini salamlamaq istəyirəm. Azərbaycanda Olimpiya hərəkatına verdikləri davamlı dəstəyə görə onlara minnətdaram.

Azərbaycan zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə malik olan ölkədir. Multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəylik Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsidir.

Bu il biz Avropa Oyunlarını qəbul edirik.

2017-ci ildə biz İslam Həmrəylik Oyunlarını qəbul edəcəyik.

Bu, Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında oynadığı rolu nümayiş etdirir.

Müstəqil dövlət kimi biz gəncik. Cəmi 24 yaşımız var. Yaşımız bu axşamkı mərasimdə geriyə saymağın məhz həmin rəqəmdən başlanılması ilə üst-üstə düşür.

Son 24 il ərzində ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmə müşahidə olunub.

Azərbaycanın iqtisadi sabitliyi və davamlı inkişafı bizə bu cür böyük idman tədbirini keçirmək imkanı yaradır.

İşə sadiqliyimiz və yorulmaz fəaliyyət sayəsində vaxtın məhdud olduğunu dəf edərək, bu Oyunları cəmi iki il yarım ərzində hazırladıq.

(Ardı 2-ci səhifədə)

AZƏRBAYCAN ORDUSU

# "Bakı-2015" - Birinci Avropa Oyunlarının təntənəli açılış mərasimi olub





(Əvvəli 1-ci səhifədə)

Mən Oyunları reallığa çevirmək üçün böyük səylə, sadiqliklə və istəklə çalışan şəxslərin hamısına təşəkkürümü bildirmək istəyirəm.

Mən, həmçinin bütün beynəlxalq tərəfdaşlarımıza, bir çox yerli və xarici könüllülərə minnətdarlığımı bildirmək istəyirəm.

Komandamız qarşılıqlı əməkdaşlığın, anlaşma və dostluğun bariz nümunəsidir. Bu axşam biz Avropanın 6 min ən yaxşı atletini ölkəmizdə salamlayırıq.

Hörmətli atletlər, bu Oyunlar sizin üçündür. Siz ilk iştirakçısınız. Siz Avropa Oyunlarının ilk çempionları olacaqsınız. Bütün Azərbaycan xalqı sizə dəstək vermək üçün bir araya gəlib.

Bakı 17 gün ərzində sizin evinizdən uzaqda ikinci doğma eviniz olacaq. Bu axşam mən xalqımızdan, əldə etdiyimiz bütün nailiyyətlərdən fərəh və iftixar hissi duyuram. Mən bu Oyunlara qəlbən bağlandığınıza görə sizin hamınıza təşəkkürümü bildirirəm.

Onu da bildirirəm ki, gələn illərdə Avropa Oyunlarının məşəli nə qədər uzaqlarda alovlansa da, Azərbaycanın və "Bakı-2015"-in parlaq ruhunun atəşi orada olacaq.

Avropa Oyunlarının atletləri.

Xanımlar və cənablar.

Əziz qonaqlar.

Sülhü, dostluğu və həmrəyliyi qeyd etmək üçün Bakıya, Azərbaycana xoş gəlmisiniz!

* * *

Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış etdi.

- Axşamın xeyir Bakı!

Axşamın xeyir Azərbaycan!

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri İlham Əliyev.

"Bakı-2015"-in Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyeva.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax.

Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah.

Zati-aliləri dünya liderləri.

Beynəlxalq Olimpiya Komitəsinin üzvləri.

Avropa Olimpiya ailəsinin üzvləri.

Çox hörmətli qonaqlar.

Bakıdan və bütün Azərbaycandan olan əziz dostlar.

Qarşıdan gələn 17 günü canlandıracaq 12.500 könüllü.

Sağ olun.

Çox sağ olun.

Bu, Avropa Olimpiya Komitəsinin tarixində ən fərəhləndirici məqamdır.

Bu axşam burada Bakının yeni möhtəşəm Olimpiya Stadionunda biz Avropa idmanında tarixi məqamın şahidiyik, onu yaradırıq: İlk Avropa Oyunlarının açılışındayıq.

Bu axşam biz dünyanın Qitə Oyunlarına çatışmayan beşinci halqanı əlavə edirik.

Avropanın ilk Oyunları sayəsində biz Olimpiya hərəkatının beş qitəsini bir-birinə daha sıx bağlayacağıq.

Prezident Əliyev, sağ olun, birinci xanım Əliyeva sağ olun! Azərbaycan, sağ ol! Avropa Olimpiya ailəsini səmimi qəbul etdiyinizə görə sağ olun!

Birinci xanım Əliyeva, Sizin "Bakı-2015"-in Təşkilat Komitəsinin sədri kimi Avropa Oyunlarında oynadığınız rola sözlə qiymət vermək çox çətindir.

Bu sahədə yorulmaz fəaliyyətinizə, Avropada idmanın parlaq gələcəyinə verdiyiniz töhfəyə görə Sizə minnətdaram. Siz bir dövlət kimi qürur doğuran yoldasınız. Bu yolda Sizinlə addımlamaqdan şərəf duyduq. Beynəlxalq ictimaiyyətin üzvü, cəmiyyət və Avropanın yeni idman paytaxtı kimi məqsədlərinizin həyata keçməsində iştirak etməkdən fərəh hissi duyduq.

İdman müsbət dəyişikliklər üçün nadir qüvvədir. Prezident Baxın idmanın universal qanunu hesab etdiyi dəyişikliyi qaçılmaz edən dəyərlərin yayılmasına çalışdıq. Qlobal etika, ədalət, hörmət və dostluq dəyərlərini yaydıq.

"Bakı-2015" uzun yolun ən vacib nöqtəsidir və çılğın arzudur. O, AOK-ın alovlanan iddiasıdır. Bu, Sizin üçün, Bakı üçün, Azərbaycan xalqı üçün indiki nəslə bir dəfə nəsib olan fürsətdir və sizlər onilliklər ərzində bu məkanların, bu sərmayənin və qlobal diqqətin bəhrəsini görəcəksiniz.

İdman və Olimpiya hərəkatının gənc dövlətinizin sürətli inkişafının mərkəzində durmasına daim səy göstərən Prezident Əliyevin və birinci xanım Əliyevanın qətiyyətli mövqeyi hazırlıq işlərimizin aparıcı qüvvəsi oldu.

Bu, sizə - nazir Azad Rəhimovun rəhbərlik etdiyi "Bakı-2015" Avropa Oyunlarının Əməliyyat Komitəsindəki 2000 əməkdaşa göstərilən etimaddır. Çünki onlar Oyunları cəmi 30 ay ərzində həyata keçirmək məqsədilə bu cür qətiyyət və peşəkarlıqla çalışdılar.

Səylərinizə görə çox sağ olun.

İndi isə mən şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi "Bakı-2015" ilk Avropa Oyunlarını açıq elan etməyə dəvət edirəm.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarını açıq elan etdi.

Stadionun ətrafında atəşfəşanlıq başlandı.

Stadionun işıqları söndürüldü. Qaranlıqda muğam avazı üstündə tənha bir səs eşidildi. Bu, mərasimin əvvəlində dinlədiyimiz xalq artisti Alim Qasımovun səsi idi. Bu dəfə o, uçan xalça üzərində oxuyurdu.



Çat-çat olmuş torpaq üzərində bir qadın dolaşırdı. Onun əlində yazın gəlişini bildirən, Novruzun rəmzi olan səməni vardı. Ayaqları altında isə ot və bu yerlərdə bitən gül-çiçəklər cücərirdi. Xəfif meh qadının uzun, şəffaf duvağını yelləsaid. O, səhnənin ortasına çatdıqda qabı birinci Avropa Oyunlarının məşəlinin basdırıldığı yerə qoydu. Yerdən su çıxmağa başladı, qadının qarşısında nəhəng su hövzəsi - Xəzər dənizinin rəmzi canlandı. O, suda ahəstə addımladı, sonra çevrilib arxasında yaranmış mənzərəyə baxdı.

Bu vaxt yerdən üst-başı toz-torpağa, palçığa batmış 100 kişi çıxdı. Onlar 50 nağaraçının səsləndirdiyi ahənglə ayaqlarını yerə vuraraq ritualı xatırladan Azərbaycan milli rəqsini ifa etdilər. Rəqsin ən qızğın anında sanki zəlzələ baş verirmiş kimi yer yarılmağa və qabarmağa başladı. Yerdən iri qaya parçaları çıxdı və birləşərək nəhəng dağa çevrildi. Onun kənarlarında alovla yazılmış sadə insan və heyvan fiqurları, qayıqlar göründü. Bunlar Qobustanın qədim qayaüstü təsvirləri idi.

Torpağın yarığından çıxan kişi dağın zirvəsində göründü. Stadiona çökmüş sükutu balabanda ifa olunan Azərbaycan xalq mahnısı "Sarı gəlin"in sədaları pozdu. Kişi ayağı altında yanan daşı götürdü. Bu səhnələr Fikrət Əmirovun "Min bir gecə" baletinin uvertürası ilə müşayiət olunurdu. Kişi qarşıda - Xəzər dənizinin sahilində dayanmış qadına baxır və ona tərəf gedirdi. Qadının arxasındakı parıldayan dairəvi qara lövhə yavaş-yavaş suyun üzərindən qalxaraq, Ay kimi göyə ucaldı. Dağ yavaş-yavaş yerə endi və yerə batıb yoxa çıxdı. Onlar açılış mərasiminin əvvəlində təsvir olunan Leyli və Məcnunu xatırladırdı. Kişi yolda daşı daha iki dəfə yerə qoydu. Onun arxasınca çatlardan çıxaraq yayılan alov dilimləri yerdə nəhəng insan fiqurunun təsvirinə çevrildi. Bu, nəhəng petroqlif formasına düşmüş lava axınlarına, Yanardağın heç vaxt sönməyən alovlarına bənzəyirdi. Petroqlif getgedə daha dolğun insan forması aldı.

Kişi yaratdığı alov mənzərəsinə baxdı. Qadın ona yetişmək üçün sulardan üzüb keçdi. Yanan daşı qaldırdı, alov axınları nəhəng qan-damar sistemi təsvirindəki əl-ayaqlardan başa doğru sürətlə sovrulub yox oldu. Kişi və qadın yanan daşı əllərində birlikdə tutub göyə qalxan dairəvi lövhəyə tərəf qaçmağa başladılar. Onlar dayaz sulara atıldılar və daşı parıldayan qara dairəvi lövhəyə tərəf tulladılar. Yanan daş lövhənin ortasına dəyib, onu parçaladı. Lövhə alışaraq alov dairəsinə çevrildi. Bu, ilk Avropa Oyunlarının məşəli idi.

Beləliklə, ən həyəcanlı an gəlib yetişdi və Birinci Avropa Oyunlarının məşəli alovlandı.

Yanan lövhə Yer, Günəş və Ayın bir araya gəldiyi möhtəşəm kosmik mənzərəni - tam Günəş tutulmasını xatırladırdı. Birlik və sülh rəmzi olan ilk Avropa Oyunlarının məşəli stadiondan səmaya ucaldı.

Bundan sonra səhnədəki mənzərə tamaşaçını Bakı sahilinə apardı, qarşıda Xəzər dənizi üzərində tədricən yaranan şaquli alov dairəsi canlandı və atəşfəşanlıq başladı.

Rəngbərəng fişənglər Xəzərin və Bakı Olimpiya Stadionunun üzərində səmanı bəzədi və möhtəşəm bayram mənzərəsi yaratdı.

Məşəl Oyunlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaq.

Atəşfəşanlığın qızğın vaxtında ifaçılar səhnə boyunca düzüldülər. Onlar əl-ələ verib Azərbaycan milli rəqsi "Yallı" oynadılar. Nar dənəsi rəngində 20 min şar tamaşaçıların üzərinə səpələndi. Bu "nar dənələri" sevgi nişanəsi, uğurun mücəssəməsi və Azərbaycanın rəmzidir.

Birinci Avropa Oyunlarının möhtəşəm açılış mərasimi başa çatdı.

Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bir mərasimlə Avropa Oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.

**AZƏRTAC**

# Azərbaycan Prezidenti İlham Əliyev Birinci Avropa Oyunlarında çempionlarımıza qızıl medalları təqdim edib

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015"-in Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri ilk Avropa Oyunları çərçivəsində "Baku Crystal Hall"da keçirilən karate yarışlarının gedişini izləyiblər.



Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri əvvəlcə karatenin kumite növü üzrə yarışları izlədilər.

60 kiloqram çəki dərəcəsində də yarışlar gərgin və maraqlı mübarizə şəraitində keçdi. Bu çəki dərəcəsində yarışan Azərbaycan karateçisi Firdovsi Fərzəliyevin finalda rəqibi İtaliya idmançısı Luka Maresku idi. Görüşü tam üstünlüklə keçirən həmyerlimiz mübarizənin başa çatmasına təqribən 2 dəqiqə qalmış 2:0 hesabı ilə irəli çıxdı. Firdovsi Fərzəliyev görüşün qalan 1 dəqiqəsində daha iki dəfə fərqləndi və 4:0 hesabı ilə qələbə qazanaraq çempion adına layiq görüldü. Xatırladaq ki, idmançımız ilk görüşdə ispaniyalı Matias Qomes Qarsiyanı 2:0 hesabı ilə məğlub etmişdi. O, ikinci görüşündə sonradan finalda rəqibi olacaq İtaliya idmançısı Luka Mareskudan 4:2 hesabı ilə üstün olub. Karateçimiz növbəti görüşündə albaniyalı Halil Marqeşə 6:0 hesabı ilə tam üstünlüklə qalib gəlib. Digər qrupda ikinci yer tutan makedoniyalı Emin Pavlovla görüşün gedişində 2:4 hesabı ilə geridə olan idmançımız sonra daha inamla yarışıb və mübarizəni təmiz qələbə ilə başa çatdıraraq finala vəsiqə qazanıb. Həlledici görüşdə yenidən İtaliya idmançısı Luka Mareskuya qalib gələn Firdovsi Fərzəliyev karate üzrə 60 kiloqram çəki dərəcəsində birinci Avropa Oyunlarının çempionu adını qazandı.

Sonra mükafatlandırılma mərasimi oldu. Birinci Avropa Oyunlarının medallarını Azərbaycan Prezidenti İlham Əliyev təqdim etdi.

Azərbaycanın Dövlət himni səsləndi. Dövlət bayrağımız qaldırıldı.

Daha bir idmançımız Rəfael Ağayev 75 kiloqram çəki dərəcəsində karatenin kumite növü üzrə yarışlarda final görüşünü İtaliya idmançısı Luici Busa ilə keçirdi. Həmyerlimiz görüşün son saniyələrində fərqlənərək Birinci Avropa Oyunlarının çempionu adını qazandı.

Rəfael Ağayev ilk görüşdə ukraynalı İlya Nikulinə 3:0 hesabı ilə qalib gəlib. İdmançımız ikinci görüşdə türkiyəli Erman Eltemura 3:5 hesabı ilə məğlub olub. Qrupun son görüşündə latviyalı Ruslan Sadıqova 3:1 hesabı ilə qalib gələn Rəfael Ağayev yarımfinala yüksəlib. O, yarımfinalda Almaniya idmançısı Noah Bitchini 1:0 hesabı ilə məğlub edib. Final görüşünü də uğurla keçirən karateçimiz qızıl medal qazanıb.

Sonra bu çəki dərəcəsində də mükafatlandırılma mərasimi oldu.

Qaliblərə medalları "Bakı-2015" - Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva təqdim etdi.

Azərbaycanın Dövlət himni səsləndi. Dövlət bayrağımız qaldırıldı.

67 kiloqram çəki dərəcəsində yarışan karateçimiz Niyazi Əliyev isə 3-cü yer uğrunda mübarizədə almaniyalı Rikardo Qiqlerlə qarşılaşdı. Atletimizin üstünlüyü ilə keçən görüşdə Azərbaycan karateçisi 3:1 hesabı ilə qalib gələrək bürünc medalın sahibi oldu. Bu çəki dərəcəsində mükafatlandırılma mərasimi keçirildi.

Karate yarışlarında daha bir medalı qadın idmançımız İlahə Qasımova qazanıb. O, 55 kiloqram çəki dərəcəsində 3-cü yer uğrunda mübarizədə ispaniyalı Kristina Ferrer Qarsianı 5:2 hesabı ilə məğlub edərək bürünc medala layiq görülüb.

İlahə Qasımova Azərbaycan milli komandasının Birinci Avropa Oyunlarında ilk medal qazanan karateçisidir.

* * *

İyunun 13-də Birinci Avropa Oyunlarında Azərbaycanın aktivinə daha bir qızıl medal yazıldı.

Heydər Əliyev adına İdman Sarayında yunan-Roma güləşçilərinin mübarizəsində Azərbaycan pəhləvanı Rəsul Çunayev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Onun inamlı mübarizəsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva da izləyiblər.

Yunan-Roma güləşçimiz, dünya və Avropa çempionatlarının mükafatçısı Rəsul Çunayev ilk görüşdə moldovalı Daniel Kataraqanı, növbəti mərhələdə isə Xorvatiya idmançısı Dominik Etlinqeri məğlub edib. Yarımfinalda Bolqarıstan təmsilçisi Svilen Kostadinova 10:0 hesabı ilə qalib gələn Rəsul Çunayev finalda macarıstanlı Balint Korpasi ilə qarşılaşıb.

Rəqibini 4:2 hesabı ilə məğlubiyyətə uğradan Rəsul Çunayev birinci Avropa Oyunlarının çempionu oldu. Azarkeşləri sevindirən idmançımız öz parlaq qələbəsi ilə xalqımıza böyük sevinc yaşatdı.

71 kiloqram çəki dərəcəsində qaliblərin mükafatlandırılması mərasimində iştirak edən Prezident İlham Əliyev hər üç yerin sahibinə medalları təqdim etdi.

Dövlətimizin başçısı İlham Əliyev Birinci Avropa Oyunlarının çempionu Rəsul Çunayevi təbrik etdi.

Qalib idmançımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndi, üçrəngli bayrağımız qaldırıldı.

Digər güləşçimiz Rafiq Hüseynov 80 kiloqram çəki dərəcəsində iştirak etdi. İlk mərhələdən azad olan Rafiq Hüseynov birinci görüşünü səkkizdə bir finalda keçirdi. Təmiz qələbə ilə Avstriya idmançısına qalib gələn Rafiq Hüseynov ikinci qarşılaşmasında bolqarıstanlı Daniel Aleksandrovu məğlub etdi. Yarımfinalda Türkiyə idmançısı Selçuq Cebiyə qalib gələn həmyerlimiz finalda Rusiya təmsilçisi Yevgeni Saleevlə görüşdü və gərgin mübarizə şəraitində keçən qarşılaşmada Rafiq Hüseynov ikinci oldu.

Daha sonra 80 kiloqram çəki dərəcəsində aralarında Avropa Oyunlarının gümüş mükafatçısı Rafiq Hüseynov da olan qaliblər mükafatlandırıldılar.

İyunun 13-də 59 kiloqram çəki dərəcəsində güləşçimiz Elman Muxtarov üçüncü yer uğrunda mübarizə aparıb və bu qarşılaşmada Ermənistan təmsilçisi Roman Amoyan üzərində 4:1 hesabı ilə qalib gəlib və Birinci Avropa Oyunlarının bürünc medalını qazanıb. İlk yarış günündə 59, 71, 80 və 98 kiloqram çəki dərəcələrində idmançılar öz güclərini sınayıblar. Azərbaycan millisi isə bütün çəki dərəcələrində təmsil olunub.

* * *

Birinci Avropa Oyunlarının üçüncü günündə yunan-Roma güləşçilərimiz bir qızıl, bir gümüş, bir bürünc medal qazanıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" - Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri final qarşılaşmalarını izləyiblər.

Yunan-Roma güləşi üzrə seçmə komandamızın aparıcı üzvlərindən biri olan Elvin Mürsəliyev 75 kiloqram çəki dərəcəsində mübarizəyə qoşuldu. İlk mərhələdə slovakiyalı Riçard Riqoya 8:0 hesabı ilə qalib gələn güləşçimiz səkkizdə bir finala yüksəldi. Həmin mərhələdə rumıniyalı İonel Puskasu ilə gərgin mübarizədən də soydaşımız qalib çıxdı.

Dörddə bir finalda Elvin Mürsəliyev Rusiya təmsilçisi, adlı-sanlı güləşçi Çingiz Labazanovla qarşılaşdı. Həmin görüşdə həmyerlimiz 4:2 hesabı ilə qələbə qazandı.



Yarımfinalda gürcüstanlı Zurabi Datunaşvili ilə qarşılaşan Elvin Mürsəliyev əzmkarlıq nümayiş etdirərək hesabda geri düşməsinə baxmayaraq, bu görüşdə 3:2 hesabı ilə qalib gəldi.

Finalda Elvin Mürsəliyevin rəqibi Serbiya idmançısı Viktor Nemes oldu. Gərgin mübarizə şəraitində keçən qarşılaşmada rəqibini 5:1 hesabı ilə məğlub edən Azərbaycan idmançısı xalqımıza növbəti qələbə sevincini yaşatdı.

Sonra yunan-Roma güləşi üzrə 75 kiloqram çəki dərəcəsində mükafatlandırma mərasimi oldu.

Medalları qaliblərə Prezident İlham Əliyev təqdim etdi.

Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağı ucaldıldı.

Bundan əlavə, daha bir pəhləvanımız - 130 kiloqram çəki dərəcəsində Sabah Şəriəti də öz gücünü sınadı. Səkkizdə bir finalda Ukrayna idmançısı Mikola Kuçmini 8:0 hesabı ilə məğlub edən idmançımız dörddə bir finalda Gürcüstan təmsilçisi Yakobi Kajayaya 5:2 hesabı ilə qalib gəldi.

Yarımfinalda isə Sabah Şəriəti Belarus təmsilçisi İosib Çuqoşvilini 5:0 hesabı ilə məğlubiyyətə uğratdı.

Finalda Sabah Şəriətinin rəqibi məşhur türkiyəli güləşçi Rza Kayaalp oldu. Gərgin keçən qarşılaşma Rza Kayaalpın qələbəsi ilə nəticələndi. Beləliklə, Sabah Şəriəti gümüş medalla kifayətlənməli oldu.

Yunan-Roma güləşi üzrə daha bir idmançımız - 66 kiloqram çəki dərəcəsində çıxış edən Həsən Əliyev bürünc medal uğrunda görüşdə serbiyalı Aleksandr Maksimoviçi məğlub edərək Birinci Avropa Oyunlarının bürünc medalını qazandı.

* * *

İyunun 15-də Heydər Əliyev adına İdman Sarayında "Bakı-2015" - Birinci Avropa Oyunları çərçivəsində qadınlar arasında sərbəst güləş yarışları keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva final qarşılaşmasını izləyiblər.

Xanım idmançılar 4 çəki dərəcəsində mükafatlar uğrunda mübarizə aparıblar. 48 kiloqram çəki dərəcəsində yığmamızın liderlərindən olan Mariya Stadnik təsnifat mərhələsindən azad edilib. Dünya və dördqat Avropa çempionu mübarizəyə səkkizdəbir finaldan başlayıb. M.Stadnikin ilk görüşdə rəqibi portuqaliyalı Liliana Kosta dos Santos olub. İdmançımız rəqibinə böyük hesabla qalib gəlib: 12:2. Olimpiya mükafatçımız dörddə bir finalda fransalı Julye Sabatyedən də üstün olub. Mariya bu dəfə döyüşü 11:0 hesablı qələbə ilə başa çatdırıb. Təmsilçimiz finala gedən yolda polşalı İvona Matkovska ilə gücünü sınayıb. M.Stadnik bu döyüşdən də qalib ayrılıb: 8:2.

Mariya Stadnikin final görüşü də maraqlı və gərgin mübarizə şəraitində keçib. Bolqarıstanlı Elitsa Yankova ilə üz-üzə gələn Stadnik rəqibini 12:1 hesabı ilə məğlub edib və Birinci Avropa Oyunlarının çempionu adını qazanıb. Beləliklə, Azərbaycan öz aktivinə daha bir qızıl medal yazıb.

Sonra qaliblərin mükafatlandırılması mərasimi olub.

Azərbaycanın birinci xanımı, "Bakı-2015" - Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva medalları qalib idmançılara təqdim edib.

Qalib idmançımızın şərəfinə Azərbaycanın Dövlət himni səslənib, üçrəngli bayrağımız qaldırılıb.

Əlli beş kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan güləşçisi Natalya Sinişin də yarışa səkkizdə bir finaldan başlayıb. Yalnız yarımfinalda uduzan Natalya Sinişin bununla bürünc medal uğrunda mübarizə aparmaq hüququ qazanıb. Üçüncü yer uğrunda görüşdə Ukrayna idmançısı Tatyana Kitlə qarşılaşan Natalya Sinişin rəqibini 10:0 hesabı ilə məğlub edərək bürünc mükafata sahib olub.

**AZƏRTAC-ın materialları əsasında**

# Milli Qurtuluş Günü hərbi hissələrdə təntənə ilə qeyd edilib

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Əlahiddə Ümumqoşun Ordusunda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı silsilə tədbirlər həyata keçirilib.***






İyunun 13-də hərbi hissədə keçirilən tədbirdə iştirakçılar əvvəlcə hərbi şəhərcikdə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək qarşısına hörmət və ehtiram əlaməti olaraq gül dəstələri qoyublar.

Polkovnik İlqar Lətifovun giriş nitqindən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.






Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Silahlı Qüvvələrin şəxsi heyətinə təbrikini tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Təbrikdə deyilir: "22 ildir ki, xalqımız 15 İyun gününü ümumxalq bayramı kimi qeyd edir. Azərbaycanın "olum, ya ölüm" seçimi qarşısında qaldığı, azadlığımızın və müstəqilliyimizin böyük təhlükə ilə üzləşdiyi 1993-cü ilin dəhşətli iyun günlərində xalqın təkidli xahişi və tələbi ilə ulu öndər Heydər Əliyevin ölkəmizin rəhbərliyinə qayıdışı müstəqilliyini yenicə bərpa etmiş respublikamızı məhv olmaq fəlakətindən xilas etdi və xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu. "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyən ümummilli liderimiz Vətən və xalq naminə çox ağır və məsuliyyətli missiyanı öhdəsinə götürərək bu yolda hər bir azərbaycanlı üçün örnək ola biləcək fədakarlıq nümunələri göstərdi. Unudulmaz dahi rəhbərimiz xalqı öz inamını itirməməyə, məsləkindən dönməməyə, Azərbaycanın müstəqilliyi, milli azadlığı, müstəqil dövlət kimi əbədi yaşaması yolundan çəkinməməyə, ölkəmizi düçar olduğu böhrandan çıxarmağa çağırdı.

Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmək kimi müqəddəs vəzifəni yerinə yetirən Milli Ordu quruculuğunda yeni bir mərhələnin əsası qoyuldu. Ulu öndərimizin xalqa tarixi müraciəti milli şüurun oyanışında, xalqın bir bayraq altında, bir amal uğrunda birləşib, ümumi düşmənə qarşı səfərbər olmasında, ordu ilə xalqın monolit birliyinin yaranmasında, Azərbaycan əsgərinin döyüş və vətənpərvərlik ruhunun yüksəlməsində çox mühüm rol oynadı".

Təbrikdə qeyd olunub ki, Qarabağ müharibəsinin veteranları qanlı döyüşlər getdiyi vaxtlarda əbədiyaşar Ali Baş Komandanımızın tez-tez cəbhə bölgələrinə etdiyi səfərləri, üzərində "Heydər Əliyev uğrunda!" sözləri yazılmış döyüş texnikalarının düşmən üzərinə qətiyyətli hücumlarını yaxşı xatırlayırlar. Məhz müasir Silahlı Qüvvələrimiz ulu öndərmizin sayəsində yenidən quruldu, formalaşdı, möhkəmləndi və vahid mərkəzdən idarə olunan mütəşəkkil qüvvəyə çevrildi.

Xalqımız və dövlətimiz, eləcə də Silahlı Qüvvələrimizin şəxsi heyəti ümummilli liderimizin ölkənin siyasi, iqtisadi, mədəni həyatında olduğu kimi ordu quruculuğu sahəsində də möhtəşəm xidmətlərini heç vaxt unutmur.

Müdafiə nazirinin təbrikində vurğulanır ki, Azərbaycan Silahlı Qüvvələri ulu öndərimizin layiqli davamçısı möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında daha da qüdrətlənmiş və qarşısına qoyulmuş hər bir vəzifəni layiqincə yerinə yetirməyə qadirdir. Ordumuz ölkə rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunmuşdur.

Daha sonra Müdafiə naziri əmin olduğunu bildirib ki, xalqına, dövlətinə, Prezidentinə, öz Ali Baş Komandanına arxalanan Silahlı Qüvvələrimizin şəxsi heyəti bundan sonra da qazandığı uğur və nailiyyətlərlə xalqımızı sevindirəcək, tezliklə işğal altında olan əzəli və əbədi torpaqlarımızın xilas edilməsinə nail olacaqdır.

Tədbir iştirakçılarına Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun da təbriki çatdırılıb.

Təbrikdə deyilir: "Siyasi fəaliyyəti və zəngin həyat yolu ilə yaddaşlarda əbədiyyət qazanmış ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın



iradəsi ilə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra müstəqilliyimiz üçün təhlükə yaratmış separatçılıq hərəkatına son qoymuş, Vətənimizi vətəndaş müharibəsi, dövlətimizi parçalanmaq təhlükəsindən xilas etmiş, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunmasına, cəmiyyətin vahid məqsəd ətrafında daha çox səfərbər edilməsinə və Vətənimizin müdafiə qüdrətinin möhkəmləndirilməsinə güclü təkan vermişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi, müasir, mütəşəkkil ordunu yaratmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qurucusu olmaqla yanaşı, həm də müasir Azərbaycan Ordusunun yaradıcısı, baş memarıdır. Bu əlamətdar gündə biz ulu öndərimizin ordu quruculuğu sahəsində möhtəşəm xidmətlərini bir daha dönə-dönə xatırlayır və əbədiyaşar Ali Baş Komandanımızı hörmət və ehtiramla yad edirik.

Xalqımızın ümummilli liderinin siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ali Baş Komandanımızın Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri prioritetdir.

Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası durmadan möhkəmlənir, yeni silah və sursatlar, döyüş təyyarə və helikopterləri, zenit-raket kompleksləri, gəmilər alınır, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik ruhu yüksək səviyyədədir.

Əmin olduğumu bildirirəm ki, siz bundan sonra da Heydər Əliyev ideyalarına sadiq qalaraq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə naziri general-pokovnik cənab Zakir Həsənovun qarşıya qoyduqları vəzifələri şərəf və ləyaqətlə yerinə yetirəcək, göstərilən etimadı nümunəvi xidmətlərinizlə doğruldacaq və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi naminə Vətənin çağırışına hər an hazır olacaqsınız".

Tədbirdə millət vəkili, iqtisadiyyat elmləri doktoru, professor Xanhüseyn Kazımlı çıxış edərək ulu öndərimizin hakimiyyətə qətiyyətli qayıdışı ilə iqtisadi, siyasi və mədəni həyatında, eləcə də ordu quruculuğunda yeni bir mərhələnin başlandığını qeyd edib və böyük iftixar hissi ilə bildirib ki, açılışı baş tutan I Avropa Oyunları ümummilli lider Heydər Əliyevin ardıcıllarının təntənəsidir. Bu gün Azərbaycan dünyanın diqqət mərkəzindədir, xalqımızın və dövlətimizin nüfuzu durmadan artmaqdadır.

Çıxışının sonunda millət vəkili "Böyük siyasətin davamı" çoxcildliyinin 7 cildini hərbi hissənin kitabxanasına hədiyyə edib.

Sosialist Əməyi Qəhrəmanı Ömər Ağayevin ulu öndərimizlə bağlı xatirələri tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Polkovnik Münasib Babayev də hələ Bakı Ali Hərbi Məktəbinin kursantı olduğu vaxtdan ulu öndərlə olan görüşlərini xatırlayıb.

Tədbirin sonunda incəsənət ustalarının ifasında mahnılar səsləndirilib və xatirə şəkli çəkilib. Hərbi şəhərcikdə görülən işlərdən məmnun qalan qonaqlar şəxsi heyətin Ali Baş Komandanın hər bir əmrinə daim hazır olduqlarının şahidi olublar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ümummilli lider daim qəlbimizdə xatırlanacaq

Tofiq TAĞIYEV,
Silahlı Qüvvələrin Baş Klinik Hospitalının rəisi, tibb xidməti polkovnik-leytenantı



Azərbaycanın müasir tarixinə qovuşan mühüm hadisələr sırasında 15 İyun - Milli Qurtuluş Günü xüsusi əhəmiyyətə malikdir. 1993-cü ilin bu günündə baş verən əlamətdar hadisə tariximizə əbədi həkk olunub. Məhz həmin gün ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə müstəqil dövlətçiliyimiz təmin edilib. Əslində, dahi rəhbərin hələ Sovet dönəmində respublikamıza rəhbərliyi xalqımızın böyük gələcəyinə hesablanmış tarixi xidmətləri ilə yadda qalıb. Təsəvvür edin, ulu öndər İttifaqın geridə qalmış respublikalarından birini qısa vaxtda ən qabaqcıl respublikalar sırasına çıxara bilmişdi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, indiki C.Naxçıvanski adına Hərbi Liseyin məhz dahi rəhbərin siyasi qətiyyəti və təşkilatçılığı ilə yaradılması Sovet rejimində görünməmiş bir hadisə idi. Bu məktəbin yaradılması ilə xalqımızın hərbi ənənələri bərpa edildi, gənclərimizin zabit peşəsinə marağı, vətənpərvərlik hissi qat-qat artdı. Azərbaycanda güclü iqtisadiyyatın yaranması da məhz ötən əsrin 70-80-ci illərinə, yəni ümummilli liderin birinci siyasi hakimiyyəti dövrünə təsadüf edir. Ümumiyyətlə, dövləti yüksək idarəetmə bacarığına malik olan dahi rəhbər hər zaman öz xalqının gələcəyini düşünüb və bu məqsədlə strateji islahatlara imza atıb. Az bir vaxtda Sovetlər İttifaqında əsl dövlət xadimi kimi şöhrət qazanmış bir azərbaycanlını gözü götürməyənlər, onun paxıllığını çəkənlər az deyildi. Mərkəzin rəhbərliyi ulu öndərimizin hər addımına qısqanclıqla yanaşırdı. 1990-cı ilin 20 Yanvar qırğını törədiləndə, o, həyatının təhlükə qarşısında qalmasına baxmayaraq, xarici ölkə jurnalistləri qarşısında xalqımızın haqq səsini və Azərbaycan həqiqətlərini dünyaya bəyan etdi.

Ötən əsrin axırlarında ittifaqın süqutu nəticəsində xalqların milli azadlıq mübarizəsi başlananda, Azərbaycan da tarixi müstəqilliyini bərpa etmək imkanı qazandı. Amma yenə də müstəqilliyə gedən yolumuz gərgin mübarizələr dövrünə təsadüf etdi. Güclü havadarına arxalanan işğalçı Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalan ölkəmizin daxilində separatçı qüvvələr baş qaldırdı. Dağlıq Qarabağ və ona bitişik yeddi rayonu işğal edilən gənc dövlətimizin müstəqilliyi də təhlükə ilə üzləşdi. Məhz belə mürəkkəb tarixi şəraitdə ölkənin idarə edilməsində güclü liderə zərurət yarandı və Azərbaycan xalqı doğru seçim edərək müdrik dövlət xadimi Heydər Əliyevə üz tutdu. Vətənpərvər ziyalılarımız yaxşı bilirdi ki, müstəqilliyimizi qoruyub saxlamaq üçün məhz yüksək təcrübəyə malik dövlət xadiminin respublika rəhbərliyinə qaytarılması olduqca vacibdir. Dövlətçiliyimizi məhv olmaq təhlükəsindən yalnız qətiyyətli dövlət rəhbərinin siyasi təcrübəsi və möhkəm iradəsi xilas edə bilərdi.

Moskvadan Vətənə dönən ulu öndər doğma Naxçıvan torpağında böyük coşqu ilə qarşılandı, ağsaqqallar, ağbirçəklər, ziyalılar - hamı onun qədim yurdun xilaskarı olacağını düşünürdü. Onda erməni hərbi birləşmələrinin hücumlarına məruz qalan Muxtar Respublika blokada şəraitində yaşayırdı. Əhali ümidsiz vəziyyətdə idi. O vaxt Naxçıvan qarnizonunun hospitalında mülki həkim kimi çalışırdım. Yaxşı yadımdadır ki, müdrik rəhbərin Naxçıvan Ali Məclisinə sədr təyin edilməsi ilə bu bölgədə insanlar qurtuluşa yetişdi. Hamıda bir inam yarandı ki, dahi rəhbər Naxçıvanı çətin və dözülməz vəziyyətdən çıxara biləcək.

Naxçıvanın sərhəd bölgələrinin etibarlı müdafiəsi üçün bütün bacarıqlarını sərf edən ulu öndər yaralı döyüşçülərə baş çəkmək üçün tez-tez qarnizon hospitalına gəlirdi. Onunla şəxsən görüşdüyüm anlar ömrümün ən yadda qalan səhifələridir. Mən o xatirələri heç zaman unutmaram. Azərbaycan xalqı onu Bakıya, respublika rəhbərliyinə dəvət edəndən sonra o, böyük məhəbbətlə sevdiyi doğma Vətənini xilas etməyə tələsdi. Bakıya yola düşdüyü gün Naxçıvanın əhalisi onu göz yaşı ilə yola salırdı. Bu göz yaşları rəhbərə insanların təmiz məhəbbətinin təsdiqi idi. Əslində o, doğma Azərbaycanımızın müstəqilliyini qoruyub saxlamaq üçün Bakıya mütləq qayıtmalı idi...

1993-cü ilin yayında ulu öndər Azərbaycanda siyasi hakimiyyətə qayıtdı. Məhz bu tarixi qayıdışla dövlətçiliyimiz ciddi təhlükələrdən xilas edildi və Azərbaycan öz müstəqilliyinin yeni bir mərhələsinə qədəm qoydu. Həmin dövrün şahidlərindən biri olaraq qeyd etmək istərdim ki, çox qısa vaxt ərzində ümummilli liderimizin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkədə ictimai-siyasi sabitliyə zəmin yaratdı.

Dahi rəhbərimizin qayıdışından sonra ölkədə xaos və özbaşınalığın, kütləvi cinayətkarlığın qarşısı alındı və hüquqi-dünyəvi dövlət quruculuğu yolunda islahatlara başlandı. Ümummilli liderin xeyir-duası ilə 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" ölkəmizə xarici sərmayədarların cəlb edilməsi ilə nəticələndi. Hər kəs üçün aydın həqiqətdir ki, müasir iqtisadi inkişafımızın bünövrəsi bu tarixi müqavilənin imzalanması ilə qoyulub. Həyata keçirilən mühüm islahatlardan biri də ordu quruculuğunu əhatə edirdi. Müdrik rəhbər yaxşı bilirdi ki, Azərbaycanın tarixi müstəqilliyinin qorunmasına möhkəm zəmin yaradan əsas amillərdən biri güclü ordunun yaradılmasıdır. Buna görə də qısa zamanda orduda vahid rəhbərlik prinsipinin və nizam-intizamın təmin edilməsinə, hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsinə və hərbi qulluqçuların döyüş ruhunun artırılmasına xidmət edən mühüm tədbirlər görüldü.

Azərbaycanın ordu quruculuğu strategiyasının hazırlanmasında önəm verilən əsas sahələrdən biri də hərbi səhiyyənin müasir tələblər səviyyəsində qurulması idi. Müdrik rəhbər daim tövsiyə edərdi ki, Azərbaycanda da Gülhanə tipli dünya şöhrətli hərbi səhiyyə ocağı təşəkkül tapsın. O vaxt müdrik liderimiz qeyd edirdi ki, müstəqil Azərbaycanda da belə müasir hospitalın yaradılması dövlətimizin əsas məqsədlərindən biri olmalıdır. Bu gün bir Azərbaycan vətəndaşı olaraq hədsiz qürur duyuram ki, dahi rəhbərimizin arzusu artıq reallığa çevrilib. Müasir dövrdə ulu öndərin siyasi kursu onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycan regionun qüdrətli dövlətinə çevrilib. Beynəlxalq aləmdə nüfuzu artan ölkəmiz "Bakı-2015" ilk Avropa Oyunlarının ev sahibidir.

Son illər həyata keçirilən məqsədyönlü tədbirlər ordu quruculuğunun, həmçinin hərbi səhiyyə sisteminin də inkişafına təkan verib. Ordu quruculuğuna göstərilən yüksək diqqət və qayğının nəticəsi olaraq ölkəmizdə hərbi təbabətin maddi-texniki bazası yaradılıb, ən müasir müalicə korpusu hərbi qulluqçuların ixtiyarına verilib. Bu gün dünya tibb elminin son yeniliklərinin tətbiq olunduğu müalicə bölmələrində xəstələrin intensiv müayinə və müalicəsi üçün geniş imkanlar mövcuddur. Ən mürəkkəb cərrahi əməliyyatlar artıq Silahlı Qüvvələrin Baş Klinik Hospitalında uğurla həyata keçirilir. Qeyd etmək istərdim ki, hospitalımızda peşəkar tibb heyəti formalaşıb, biz buna yalnız Müdafiə Nazirliyinin, şəxsən general-polkovnik cənab Zakir Həsənovun yaxından qayğısı sayəsində nail olmuşuq. Müdafiə naziri qısa vaxtda dəfələrlə Baş Klinik Hospitalda olub, burada müalicə şəraiti ilə maraqlanıb, maddi-texniki təminatla bağlı vacib tapşırıqlarını verib. Yeri gəlmişkən, nazirliyin rəhbər heyətinin bayram günlərində xəstələrimizi ziyarət etməsi dəyərli ənənəyə çevrilib.

Həm dövlətimizin, həm də Müdafiə Nazirliyi rəhbərliyinin hərbi səhiyyənin inkişafına göstərdiyi diqqət və qayğı kollektivimizi ürəkdən ruhlandırır, bizi yeni uğurlar qazanmağa sövq edir. Ümummilli liderimizin ideyalarını layiqincə yaşatmaq üçün hər kəs özündə məsuliyyət hiss etməli və müstəqilliyimizin möhkəmlənməsində köməyini əsirgəməməlidir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***16 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 82 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərindən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari, Mosesqex və Ayqepar kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Koxanəbi, Ağdam və Əlibəyli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Yarımca, Çiləbürt, Göyarx, Ağdam rayonunun Şuraabad, Qaraqaşlı, Yusifcanlı, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq iyunun 17-də Göygöl rayonunun Ömər dağ keçidindəki qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, səhra köməkçisi Xristo Xristov və yüksək səviyyəli planlaşdırma qrupunun nümayəndəsi polkovnik Tuncay Sevim, təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle, Saymon Tiller və yüksək səviyyəli planlaşdırma qrupunun nümayəndəsi polkovnik-leytenant Aleksandr Nepokrıtıx keçirəcəklər.

# Ulu öndər bizi zülmətdən işığa çıxarıb

İbrahim MƏSİMOĞLU,
yazıçı-jurnalist, keçmiş döyüşçü



***Bəşəriyyət tarixində müharibə haqqında müxtəlif fikirlər söylənib. İstənilən halda müharibə qarşı tərəflərin hər birinə ağır bəlalar gətirir. Eyni zamanda müharibə xalqın mənəvi qüvvəsini sınağa çəkir. Son nəticədə güclü xalq qələbə qazanır.***

Müharibənin gedişində həlledici rol oynayan ordunun gücü həm siyasi rəhbərlikdən, həm də hərbi komandanlıqdan asılıdır. İki qüvvədən biri zəiflik göstərərsə, cəbhə xəttində uğurlu hərbi əməliyyatlar keçirmək qeyri-mümkündür. Bu baxımdan Qarabağ savaşının geniş və dərin təhlili əsl həqiqətləri üzə çıxarıb.

Yalnız ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ordu quruculuğu prosesində canlanma yaranmış, vahid komandanlıq məsələsi öz həllini tapmış və ölkəmizin müstəqilliyi möhkəmlənmişdir. Böyük öndərin rəhbərliyi ilə həyata keçirilən islahatlar Silahlı Qüvvələrimizin inkişafına güclü təkan verdi. Bizi zülmətdən işığa çıxaran liderimiz qısa müddət ərzində bütün qüvvələri səfərbər edərək cəbhənin ön xəttində müsbət dəyişikliklərə nail oldu. Heydər Əliyevin hakimiyyətə qayıdışı təkcə ordumuzun deyil, həyatımızın bütün sahələrinin inkişafına təkan verdi.

Azərbaycan Ordusunda həqiqi hərbi xidmətə 1993-cü ilin əvvəlindən başlamışam. Uğur və məğlubiyyətlərin canlı şahidiyəm. Əvvəllər ordumuzda kəm-kəsirlərimiz çox idi. Vahid komandanlığın olmaması, orduda kök salmış siyasi qüvvələrin özbaşına hərəkətləri vətənpərvər döyüşçülərimizin fədakarlığına kölgə salır, uğurlarımızı heçə endirirdi. Buna görə də uğurlarımızın ömrü qısa olurdu. Ən başlıcası isə xalqı öz ardınca apara bilən müdrik Ali Baş Komandanımız yox idi. Həmin dövrün şahidi olan hər kəsə yaxşı bəllidir ki, ulu öndərin qayıdışına qədər ordu quruculuğu formal xarakter daşıyırdı. Bəzi məqamlarda hərbi əməliyyatlar şəxsi adamların ambisiyalarına xidmət edirdi. Lakin ən güclü dayağımız mənəvi potensialdan ibarət idi. Cəsur hərbi hissə komandirlərimiz və doğma torpağın azadlığı naminə öz şirin canından keçməyə hazır olan mərd əsgərlərimiz vardı. Deməli, ordunu idarə edə bilən güclü komandana ehtiyac vardı. Məhz ümummilli liderimiz Heydər Əliyev təfəkkürünün, idarəçiliyinin gücü hesabına ordumuzda əsaslı dönüş yarandı. Silahlı Qüvvələrimizin hərbi təhsil sistemində aparılmış köklü keyfiyyət dəyişiklikləri sayəsində kadr potensialı formalaşmağa başladı. Beləliklə, ordu sıralarında peşəkar zabitlərin sayı ildən-ilə artdı. Maddi-texniki bazamız gücləndi və ordumuzun qısa vaxtda qazandığı hərbi üstünlük nəticəsində atəşkəs imzalandı. Bu isə əhəmiyyətli islahatların həyata keçirilməsi üçün möhkəm zəmin yaratdı.

Bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusu hesab edilir. Ölkəmiz ulu öndərin yolu ilə gələcəyə doğru inamla addımlayır. İnanıram ki, ordumuz yaxın gələcəkdə düşmənə öz sözünü deyəcək və əzəli torpaqlarımızı işğaldan birdəfəlik xilas edəcəkdir.

# Milli qurtuluşumuzun təntənəsi







***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Əlahiddə Ümumqoşun Ordusunda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində bayram münasibətilə təntənəli mərasimlərin keçirilməsi artıq xoş bir ənənəyə çevrilib. İyunun 15-də Şəmkir hərbi birliyində keçirilən təntənəli mərasimdən əvvəl tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək əklil və gül dəstələri qoyublar.***

Hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa edildikdən sonra təntənəli mərasimdə polkovnik Elşad Əbilov çıxış edərək, 1993-cü ildən başlanan Qurtuluş Gününün Azərbaycan xalqının və dövlətinin tarixində əlamətdar bir gün olduğunu vurğulayaraq qeyd edib ki, ulu öndər Heydər Əliyevin 22 il öncə xalqın iradəsi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmizin ictimai-siyasi və iqtisadi, sosial-mədəni həyatında uğurlu inkişaf mərhələsi başladıqdan sonra, ordu quruculuğu yeni vüsət almışdır. Müstəqil Azərbaycanımızın 22 il ərzində qazandığı uğur və nailiyyətlərə görə ümummilli liderimiz Heydər Əliyevə və dahi rəhbərin siyasi kursunu uğurla davam etdirən cənab İlham Əliyevə minnətdarıq. Silahlı Qüvvələrin bu gün ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunduğunu fərəh hissi ilə qeyd edən polkovnik Elşad Əbilov, sonra Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun bayram təbriklərini şəxsi heyətə çatdırıb. Tədbir iştirakçıları təbrikləri ruh yüksəkliyi ilə qarşılayaraq hər an Vətənin çağırışına hazır olduqlarını bildiriblər.

Mircəlal Paşayev adına 39 nömrəli Gəncə şəhər orta məktəbinin müəllim və şagirdləri "Xalqımızın milli qurtuluşu", "Qurtuluşa aparan yollar" və "Mən fəxr edirəm ki, azərbaycanlıyam" adlı ədəbi-bədii kompozisiyalarla hərbçilər qarşısında çıxış ediblər.

Birlik komandirinin əmri ilə xidmətdə fərqlənən hərbi qulluqçular mükafatlandırılıb.

Sonra şəxsi heyət hərbi orkestrin müşayiəti ilə şəhərin Heydər Əliyev prospekti ilə bayram yürüşü edib.

Hərbçilərin yürüşünü coşqu ilə qarşılayan şəhər əhalisi Azərbaycan əsgərinin torpaqlarımızı tezliklə azad edəcəyinə və qələbə bayrağını Xankəndi, Şuşa, Laçın və digər işğal olunan rayonlarımızda da dalğalandıracağına əmin olduqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Bayram günündə idman yarışlarına start verildi






***Azərbaycan xalqının ən yeni tarixində 1993-cü ilin 15 iyunu dönüş məqamı kimi dəyərləndirilir. Həmin gün tənəzzülü tərəqqiyə çevirən, xaosu sabitliyə yönəldən bir keçid dövrü oldu. Xalqın təkidilə hakimiyyətə qayıdan zəmanəmizin böyük azərbaycanlısı, ümummilli lider Heydər Əliyev dövlətimizi və dövlətçiliyimizi uçuruma yuvarlanmaqdan qurtardı, dərinləşməkdə olan siyasi, iqtisadi, sosial böhrandan xilas etdi və ölkəmizi sabit inkişaf mərhələsinə çıxardı. Ona görə hər bir azərbaycanlı üçün əziz tarixi bayramlarımızdan olan Milli Qurtuluş Günü ölkəmizdə, o cümlədən Silahlı Qüvvələrimizdə təntənə ilə qeyd edilir.***

Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Beyləqan hərbi birliyində Milli Qurtuluş Gününə həsr edilmiş geniş bir tədbir keçirildi. Bayram mərasiminin təşkilatçıları maraqlı bir ssenari düşünmüşdülər. Milli Qurtuluş Günündə, həmçinin Silahlı Qüvvələrimizin yaradılmasının 97-ci ildönümünə həsr edilmiş idman yarışlarının açılış mərasimi oldu.

Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi illərdə həmişə millətimizin gələcəyi hesab edilən sağlam gəncliyin yetişdirilməsinə, onların təhsilinə, Azərbaycanda idmanın inkişafına böyük diqqət yetirirdi. Bu məqamı bayram mərasiminin təşkilatçıları da unutmamışdılar.

Öncə mərasim iştirakçıları Beyləqan şəhərində ucaldılmış ümummilli lider Heydər Əliyevin möhtəşəm abidəsini ziyarət etdilər və abidənin önünə təzə-tər gül-çiçək dəstələri düzdülər.

"N" hərbi hissəsinin bayramsayağı bəzədilmiş geniş meydançasında bayram münasibətilə şəxsi heyətin tədbiri keçirildi. İdman yarışlarına hərbi hissələrdən gəlmiş tədbir iştirakçıları burada komandalar şəklində səf-səf düzülmüşdülər.

Zabit Nemət Babayev mərasim iştirakçılarını salamlayaraq onları Milli Qurtuluş Gününə və Silahlı Qüvvələrin yaradılmasının 97-ci ildönümünə həsr edilmiş idman yarışlarının açılışı münasibətilə təbrik etdi.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Zabit Namiq Cavadov bundan sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun bayram təbriklərini şəxsi heyətə çatdırdı.

Sonra çıxış edən zabit Elçin Kərimov Milli Qurtuluş Gününü xalqımızın tarixində ən şanlı səhifə kimi dəyərləndirdi, böyük öndər Heydər Əliyevin rəhbərliyilə ölkəmizin vətəndaş müharibəsi cəngindən qurtulduğunu, Vətənimizin parçalanma təhlükəsindən xilas edildiyini və özünün yeni, əbədi müstəqillik və inkişaf mərhələsinə qədəm qoyduğunu söylədi.

Zabit Elçin Kərimov son illərdə ümummilli lider Heydər Əliyev və onun yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyilə ölkəmizdə baş vermiş böyük quruculuq işlərinə diqqət yetirdi. Dövlət başçısının "Hər ailədə bir idmançı yetişsin" devizini ölkəmizin idman həyatında önəmli bir məqam, ölkəmizdə hazırda keçirilən Birinci Avropa Oyunlarında idmançılarımızın göstərdiyi uğurlu nəticələrin buna əyani nümunə olduğunu söylədi.



Zabit onu da vurğuladı ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov da ayrı-ayrı qoşun növlərinə məxsus hərbi hissələrdə döyüş hazırlığının tərkib hissəsi kimi idmana və şəxsi heyətin fiziki hazırlığına böyük diqqət yetirir. Bu səbəbdən Milli Qurtuluş Günündə birliyin hərbi hissələri arasında Silahlı Qüvvələrin yaradılmasının 97-ci ildönümünə həsr olunmuş dörd idman növündə yarışlara start verildi.

Mərasimin sonunda yarış iştirakçıları mətin addımlarla tribunanın qarşısından keçdilər və yaxınlıqdakı stadiona yola düşdülər. Müxtəlif hərbi hissələrdən gəlmiş 300 nəfərdən artıq idmançı dörd növ üzrə-futbol, voleybol, 3 min metr məsafəyə və estafet qaçışları üzrə keçirilən yarışlarda mükafat uğrunda mübarizəyə qoşuldular. Təşkilatçıların nəzərdə tutduğu kimi, yarışlara Silahlı Qüvvələr Günündə yekun vurulacaq.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**



***İlk Avropa Oyunları kimi möhtəşəm idman tədbirinin ölkəmizdə keçirilməsinin əhəmiyyəti olduqca böyükdür. Bu fakt Azərbaycanın dünya səviyyəli istənilən tədbirə, bu sıradan siyasi, iqtisadi, humanitar, idman tədbirlərinə ev sahibliyi etməyə hazır olduğunu, ölkəmizin beynəlxalq miqyasda getdikcə artan nüfuzunu, dünya birliyi üçün əhəmiyyətini təsdiq edir.***

# Birinci Avropa Oyunları hamıda maraq doğurur

Möhtəşəm tədbir ərəfəsində Ü.Hacıbəyov adına Milli Konservatoriyanın qarşısında - Heydər Əliyev parkında da əsl qələbəlik vardı. Olimpiya məşəlini tanınmış güləşçi Avropa çempionu, dünya birinciliyinin mükafatçısı Arif Abdullayev Milli konservatoriyanın rektoru, professor Fərhad Bədəlbəyliyə təqdim etdi. Şəhər ictimaiyyətinin böyük coşqusu ilə əhatələnən bu tədbir Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestrinin müşayiəti ilə həyata keçirildi. Orkestrin ifa etdiyi musiqi nömrələri coşqunluğu bir qədər də artırdı. Qürurlandıq ki, Silahlı Qüvvələrimiz də I Avropa Oyunlarına güclü maraq göstərir.

50 dövlətdən 6 mindən çox idmançının iştirak edəcəyi bu möhtəşəm tədbir ölkəmizin bütün ictimaiyyətində, habelə Silahlı Qüvvələrin hərbi qulluqçularında da böyük maraq və qürur doğurub. İlk alovunu Atəşgahdan götürən Olimpiya məşəli regionlardan keçərək Bakıya gətirilib və xalqımız bu bayram məşəlini böyük coşqu ilə qarşılayıb.

Xarici jurnalistlərdən birinin "Bravo!" harayı hamı kimi mənim də diqqətimi çəkdi.



Baxışlarımız toqquşdu, ikimizin də üzündə könül xoşluğu vardı və səssiz təbəssüm ikimizi də məmnun eləmişdi. Bu harayı professor Fərhad Bədəlbəyli də eşitmişdi, deyəsən. Fərəhi yerə-göyə sığışmırdı. Birinci Avropa Oyunlarının məşəl mərasiminin iştirakçısı olduğu qədər də hərbi orkestrin ifasına sevinirdi; hansı dövlətinsə hansı qəzetindəsə, Azərbaycanda bu səviyyədə hərbi orkestrin mövcudluğu haqqında informasiya yayılacaq!..

Müdafiə Nazirliyi Nümunəvi Hərbi Orkestrin rəisi polkovnik Yusif Axundzadə belə bir tədbirdə iştirak etdiklərindən məmnun olduğunu bildirdi. "Biz də Azərbaycan incəsənətinin təbliğatçılarıyıq", - dedi. - Birinci Avropa Oyunlarında bizim də xidmətimizdən istifadə edilməsindən qürur duyuruq".

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

# XİN: Bundestaqda qəbul edilən qətnamə Almaniya-Azərbaycan dostluq münasibətlərinin ruhuna uyğun deyil

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi iyunun 12-də Almaniya Bundestaqında CDUCSU (Xristian Demokratlar və Xristian Sosialistlər İttifaqı) və SPD (Sosial Demokratlar Partiyası) fraksiyalarının irəli sürdüyü "Azərbaycanda insan hüquqlarının qorunmasını tələb etmək" adlı qətnamənin qəbulu ilə bağlı açıqlama yayıb.

Açıqlamada bildirilir ki, Azərbaycanın Almaniyadakı səfirliyi artıq bu məsələ ilə əlaqədar mövqeyini bildirib. Bir daha qeyd etmək istərdik ki, belə bir qətnamənin qəbulu Almaniya və Azərbaycan arasındakı dostluq münasibətlərinin ruhuna uyğun deyil və ikitərəfli münasibətlərin gərginləşməsinə xidmət edir. Hər bir hüquqi dövlətdə olduğu kimi, Azərbaycanda da istintaq və məhkəmə prosesinə təzyiq etmək qəbuledilməzdir. Azərbaycan Respublikasında heç bir şəxs öz jurnalist və ya siyasi fəaliyyətinə görə həbs olunmur. Həmin qətnamədə əksini tapmış ittihamların heç bir əsası yoxdur. Hesab edirik ki, bu, Azərbaycanın nüfuzuna xələl yetirmək məqsədi güdən qrupların və ya digər dövlətlərin qərəzli şəkildə təqdim etdiyi yanlış məlumatlardan qaynaqlanır.

Qətnamədə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi, Ermənistanın apardığı etnik təmizləmə nəticəsində zəbt olunmuş ərazilərdən, həmçinin Ermənistandan didərgin salınmış qaçqın və məcburi köçkünlər barədə məlumat qeyd edilsə də, təəssüflə bildirmək lazımdır ki, ən bəsit konvension hüquqları kobud şəkildə pozulmuş bu insanların hüquqlarının müdafiəsi və Ermənistan tərəfinin bu əməllərinə görə məsuliyyəti barədə heç bir çağırış və ya tələb əks olunmur.

**AZƏRTAC**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 543
Nüsxə 4620